DÜNYA XƏBƏRLƏRİ

Çexiyada son 33 ilin ən böyük etiraz aksiyası keçirilib

Noyabr 16, 2026



Praqada etiraz aksiyası

Noyabrın 15-də Çexiyanın paytaxtı Praqada son 33 ilin ən böyük etiraz aksiyası keçirilib. Yüzminlərlə insan hökumətin kütləvi informasiya vasitələrinin maliyyələşdirilməsi ilə bağlı irəli sürdüyü islahata qarşı nümayişə çıxıblar. Təşkilatçılar aksiyaya 350-400 min nəfərin qatıldığını bildiriblər. İştirakçıların çoxu Praqaya ölkənin digər şəhərlərindən gəlib.

Oktyabrın 24-də medianın maliyyələşdirilməsi haqqında qanun layihəsi Çexiya parlamentində birinci oxunuşdan keçib. Layihədə Çexiyanın əsas ictimai media

qurumları – Çexiya Televiziyası və Çexiya Radiosunun ictimai maliyyələşdirmədən dövlət maliyyələşdirməsinə keçirilməsi nəzərdə tutulur.

Hazırda ölkədə hər ev təsərrüfatı milli televiziya və radio yayımı üçün aylıq 205 kron (təxminən 9,5 dollar) məcburi ödəniş edir. Qanunvericilər bunu dövlət büdcəsindən maliyyələşdirmə ilə əvəzləməyi təklif edirlər.

İctimaiyyət isə dəyişikliyə etiraz edir. Etirazçıların mövqeyinə görə, yeni sistem nəticəsində media müstəqilliyini itirə, maliyyələşdirmə dövlətin jurnalistlərə təzyiq vasitəsinə çevrilə bilər. Digər yandan, təklif olunan dövlət vəsaiti medianın hazırda ictimai ödənişlərdən əldə etdiyindən 15 faiz azdır.

Praqanın mərkəzindəki Letna parkı etirazçılarla dolub. Onlar “Əlinizi mediadan çəkin!” və “Qoy mətbuat özü siyasətçilərlə məşğul olsun!” yazılmış plakatlar qaldırıblar.

Bazar günü Praqada polis patrulları və təcili tibbi yardım briqadalarının sayı artırılıb, ictimai nəqliyyatın əlavə reysləri təşkil edilib. Polis nümayişin dinc keçdiyini bildirib.

Bu, Çexiyanın müstəqil dövlət olduğu 1993-cü ildən bəri Praqada keçirilən ən böyük nümayişdir.

Bundan əvvəl isə noyabrın 3-də Çexiya Radiosu və Televiziyasının əməkdaşları tətil keçiriblər. Tətil televiziya və radio yayımında fasilələrə səbəb olub.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur